# Təbib

**Təsisçi:** Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 08 (1669) 30 aprel 2018 - ci il Qiyməti 50 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin görüşü

**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik etdi. O, Prezident İlham Əliyevlə görüşməkdən məmnunluğunu ifadə edərək bildirdi ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Böyük Britaniyanın Baş naziri SOCAR ilə BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğuladı. Tereza Mey Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Dövlətimizin başçısı bildirdi ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var. Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır.

İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olundu.



## BU SAYIMIZDA




BÖYÜK ELMİ ŞURADA 2





Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi anılıb 3

Valideyn himayəsindən məhrum olan tələbələrə ikiqat təqaüd verilir 5

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktiki kofrans 3





Allerqoloq, İmmunoloq və İmmunoreabilitasiya Elmi Cəmiyyətinin iclası keçirilib 5





ATU-nun rektoru “Qlobalizasiya və ali təhsildə yeni meyarlar” konfransında iştirak edib 4

Ölümə aparan üçüncü xəstəlik - insultdan qorunmağın yolları müzakirə olunur 4





ATU-nun prorektoru Türk Universitetlər Birliyinin qurultayına qatılıb 7





Universitetdə tələbələrin “İntellektual” yarışı keçirilib 7

**Böyük Elmi Şuranın aprelin 24-də keçirilən növbəti iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli əvvəlcə Prezident seçkilərində böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev cənablarını şura üzvlərinin və eləcə də çoxminli universitet kollektivi adından təbrik etdi. Ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində bizi qarşıdan gələn yeddi ildə də böyük uğurlar gözlədiyini deyən rektor universitet kollektivi adından İlham Əliyev cənablarına təbrik məktubu göndərildiyini nəzərə çatdırdı.**

# BÖYÜK ELMİ ŞURADA







Həyatda sevinclə-kədərin üst-üstə düşdüyünü söyləyən G.Gəraybəyli bu günlərdə Azərbaycan tibb elminin korifeylərindən biri, hamımızın müəllimi olan akademik Böyükkişi Ağayevin və uzun illər ölkə səhiyyəsinin təşkilində xüsusi əməyi olan səhiyyə nazirinin müavini Abbas Vəlibəyovun dünyasını dəyişdklərini bildirdi və onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra gündəlikdə duran məsələlər diqqətə çatdırıldı. "Azərbaycan Tibb Universitetində 2017-cı il ərzində yerinə yetirilən elmi-tədqiqat işlərinin vəziyyəti və qarşıda duran vəzifələr" barədə universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərovun hesabatı dinlənildi.

Məruzəçi ölkə rəhbərliyinin milli səhiyyə və təhsil sistemlərinə xüsusi diqqət və qayğısı sayəsində universitetimizin 2017- ci ildə xeyli nailiyyətlər əldə etdiyini vurğuladı: "Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə III daxili xəstəliklər kafedrasının dosenti Gülər Fətəliyeva, məhkəmə təbabəti kafedrasının assistenti Oleq Mirzəyev, Patoloji Fiziologiya kafedrasının dosenti Minurə Pənahi "əməkdar müəllim", I cərrahi xəstəliklər kafedrasının assistenti Rüfət Əliyev , I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti Könül Xəlilova isə "əməkdar həkim" fəxri adlarına layiq görülmüşlər.

Fizioterapiya və idman təbabəti kafedrasının müdiri, professor. Əlişir Musayev, normal fiziologiya kafedrasının müdiri, professor Arif .Məmmədov isə AMEA-nın müxbir üzvləri seçilmişlər.

AMEA-nın müxbir üzvü, mikrobiologiya və immunologiya kafedrasının müdiri professor Zakir Qarayev akademiyanın Mirəsədulla Mirqasımov mükafatı ilə təltif olunmuşdur.

Azərbaycanın beynəlxalq elmi əlaqələrinin genişləndirilməsində xüsusi xidmətlərinə görə I mamalıq və ginekologiya kafedrasının professoru İslam Mahalov «AMEA-nın professoru» elmi adına layiq görülmüşdür.

2017-ci ilin noyabrında Bakıda Elmi İnkişaf üzrə Beynəlxalq Elmlər Akademiyası Azərbaycan Bölməsinin Rəyasət Heyətinin iclasında elmin və təhsilin inkişafında nailiyyətlərə görə ATU-nun rektoru, professor Gəray Gəraybəyli akademiyanın üzvü seçilmişdir.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə onkologiya kafedrasının müdiri, akademik Əhliman Əmiraslanov «Şərəf» ordeni ilə təltif edilmişdir.

Kommunal və qidalanma kafedrasının professoru Maqsud Qasımov və Tədris-Cərrahiyyə Klinikasının otorinolarinqologiya şöbəsinin müdiri Yusif Hacıyev «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilmişlər".

Sözünə davam edən R. Bəylərov kadr potensialına da toxundu: "2018-ci il yanvar ayının əvvəlinə olan məlumata əsasən, Azərbaycan Tibb Universitetində çalışan 1344 nəfərin 1204-ü professor-müəllim heyətidir. Onlardan 4-ü Rusiya Tibb Elmlər Akademiyasının akademiki, 1-i müxbir üzvü, 4-ü Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi, 7-si müxbir üzvü, 4-ü Dövlət Mükafatı Laureatı, 27-si əməkdar elm xadimi, 45-i əməkdar həkim, 39-u əməkdar müəllim, 2-si əməkdar bədən tərbiyəsi və idman xadimi, 2-si fəxri bədən tərbiyəsi və idman işçisi, 1-i əməkdar jurnalist, 178-i elmlər doktoru, 837-si fəlsəfə doktoru, 130-u professor, 349-u isə dosentdir".

2017- ci ildə Azərbaycan Tibb Universitetində "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikası Qanununa əsasən, təbabət və əczaçılıq sahəsində 3 istiqamət, 9 problem üzrə 59 elmi-tədqiqat işinin yerinə yetirildiyini diqqətə çatdıran prorektor 2 mövzunun tamamlandığını, 57 mövzu üzrə elmi işin isə davam etdiyini dedi.

R.Bəylərov onu da bildirdi ki, 2017-ci ildə Azərbaycan Tibb Universitetinin onkologiya, I cərrahi xəstəliklər, patoloji anatomiya, ağ ciyər xəstəlikləri, ümumi cərrahiyyə, histologiya, embriologiya və sitologiya kafedraları Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənən qrant layihələr və proqramlar üzrə işlər aparıblar.

Bundan əlavə, universitet ali təhsil sahəsində Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə Şərqi Asiya ölkələri arasında əməkdaşlıq üzrə TEMPUS TASİS proqramına görə Transavropa əməkdaşlığının üzvüdür. Layihədə Azərbaycan universitetlərinin tələbə və əməkdaşlarının xarici ölkələrdə təcrübə keçməsi nəzərdə tutulur.

Prorektor ATU-nun Beynəlxalq Universitetlər Reyestrinə daxil edilməsi, Qara Dəniz hövzəsi ölkələri universitetləri şəbəkəsi çərçivəsində özünəməxsus yer tutması, Avropa universitetləri sırasına tam hüquqlu üzv seçilməsi, beynəlxalq proqramlarda iştirak etməsini universitetimizin getdikcə artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi.

ATU-nun beynəlxalq əlaqələrinin də günün tələbləri səviyyəsində qurulduğunu diqqətə çatdıran R.Bəylərov hazırda bu təhsil ocağının dünyanın 87-ə yaxın nüfuzlu ali təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etdiyini, bir sıra universitetlərlə fəal tələbə və mütəxəssis mübadiləsi apardığını söylədi.

2017- ci ildə elmi-tədqiqat işlərinin nəticələrinin 7 monoqrafiya və kitabda (biri xaricdə), 18 dərslikdə, 26 dərs vəsaitində, 3 kitabça və sorğu ədəbiyyatında, 7 elmi əsərlər məcmuəsində, 1645 elmi işdə (694 elmi iş xaricdə, 951 elmi iş respublikada), 16 metodik tövsiyədə, 9 Avrasiya patentində, 3 respublikamızın patentində öz əksini tapdığını bildirən prorektor 2017- ci ildə universitetin əməkdaşları tərəfindən dünyanın nüfuzlu elmi jurnallarında 105 məqalənin dərc olunduğunu və onların elmi əsərlərinə 57 dəfə istinad olunduğunu vurğuladı.

R.Bəylərov 2012-ci ildən etibarən Mövlana mübadilə proqramı üzrə Türkiyənin 18 universiteti ilə müqavilə imzalandığını diqqətə çatdırdı: "Mübadilə proqramına dair aparılan sorğu nəticəsində həm qəbul edən universitet, həm də qonaq gələn alimlər bu təcrübəni yüksək qiymətləndirmiş, hər 2 tərəf üçün faydalı olduğunu bildirmişlər.

Hesabat ilində türkdilli dövlətlərin əməkdaşlıq şurasının nümayəndə heyəti ATU-da qonaq olmuş və Erasmus Mundus, Mövlana mübadilə proqramları, onların icrası ilə bağlı mövcud durum haqqında müzakirə aparmışlar".

Prorektorun sözlərinə görə, 2017- ci ildə xarici ölkələrdə keçirilən 185 müxtəlif elmi konfrans, konqres və simpoziumlarda ATU-nun 242 əməkdaşı iştirak etmişdir. Respublikamızın beynəlxalq miqyasda artan nüfuzunun nəticəsidir ki, universitetdə bir çox beynəlxalq konqres və konfranslar, müxtəlif məzmunlu görüşlər keçirilir.

İxtisaslı mütəxəssislərin hazırlanmasında tələbə elmi işlərinin çox mühüm əhəmiyyət daşıdığını deyən R.Bəylərov qeyd etdi ki, 2017-ci ilin 2-3 noyabrında ATU-nun təşkilatçılığı ilə tələbə və gənc həkimlər üçün IV Beynəlxalq Tibb Konqresi keçirildi. Konqresə 450-dən cox elmi məqalə və tezislər daxil olmuşdur ki, bunlardan da 54-ü xarici ölkə universitetlərində təhsil alan tələbələr, gənc həkimlər və professorlara məxsus idi. Konqresə Türkiyə, Rusiya, Almaniya, ABŞ, İran, İraq, Özbəkistan, Meksika və Pakistandan nümayəndələr qatılmışdır".

ATU-nun Əsaslı Kitabxanasınının fəaliyyətinə də toxunan prorektor bildirdi: "Azərbaycan tibb elmi bu gun dünya səviyyəsində bir inkişaf yolundadır. Artıq 3 ildir ki, ATU-da elektron kitabxananın yaradılması üzrə işlər aparılır. İRBİS – 64 avtomatlaşdırılmış kitabxana proqramı çərçivəsində yaranmış elektron kitabxanaya ədəbiyyatlar yazılmış və elektron kataloqa salınmışdır. 2017- ci ildə kitabxana fondunun elektron kataloquna 1587 kitab, 2900 qəzet və jurnal məqaləsi daxil edilmişdir. Hazırda kitabxananın fondları üzrə 630030 kitab vardır".

R.Bəylərov çıxışının sonunda xalqımızın sağlamlığı keşiyində dayanmaq kimi humanist bir vəzifə sahibi olduqlarını heç vaxt unutmayan universitet əməkdaşlarının bundan sonra da yorulmadan səhiyyənin inkişafına, yeni tibb mütəxəssislərinin hazırlanmasına layiqincə xidmət göstərəcəklərinə əminliyini vurğuladı.

Məruzə ətrafında çıxış edən professorlar Yaqub Qurbanov, Vəsadət Əzizov, Amaliya Əyyubova və Nailə Sultanova hesabatı qənaətbəxş qiymətləndirdilər. Onlar universitetin elmi istiqamətdəki uğurları ilə yanaşı, mövcud problemlərdən də söhbət açdılar. Natiqlər bu problemlərin həll edilməsi üçün öz təklif və rəylərini dilə gətirdilər.

Müzakirələrə yekun vuran rektor diqqəti kafedralarda dərc olunmuş elmi məqalələrə və dissertasiya işlərinə yönəltdi: "Mən elmi işləri yüksək səviyyədə olan kafedra müdirlərinə xüsusi təşəkkürümü bildirirəm. Çünki biz universitetimizi təmsil edəndə elə olur ki, hər zaman eyni kafedraların elmi nəticələrini ön plana çıxarırıq. Amma elələri də var ki, orada çox zəif iş aparılır.

Burada bir neçə məsələlər haqqında da danışıldı. AMEA-nın Səhiyyə Nazirliyi ilə birgə keçirdiyi tibb elminə həsr olunmuş sessiyada Tibb Universitetinin bir çox əməkdaşları çıxış etdi və bir çox elmi nəticələr müzakirə edildi."

Digər məsələlər haqqında da söhbət açan G.Gəraybəyli müdafiə şuralarında baş verən nöqsanları önə çəkdi: "Bəzən kameralar vasitəsi ilə hər çıxışı aydın eşidirəm. Çox təəssüflə qeyd edə bilərəm ki, istisna halları kənara qoysaq, şura üzvləri sədrdən iclasın saat neçədə qurtarmasını soruşurlar. Belə münasibətlə Şuraya gələn adamdan hansı elmi müzakirələri gözləmək olar? Bəli, bu göz qabağında olan bir faktdır. Mən hesab edirəm ki, peşəkar mütəxəssislərimiz hələ də Müdafiə Şurasının üzvü deyillər."

Universitetimizdə keçirilən konfranslara da toxunan rektor bu sahədəki problemlər üzərində xüsusi dayandı: "Çox sevindirici haldır ki, bizim klinikalarda hər gün hansısa konfrans, seminar və ya tədbir keçirilir. Bu bir tərəfdən fərəhləndirici hal olsa da, amma onların bəziləri formal xarakter daşıyır. Çünki bu tədbirlərdən bəzən nə rektoryanı şöbənin, nə rektorun xəbəri olur.

Mənə hansısa şirkətdən iki məktub gəlmişdi. Mən prorektorları dəvət etdim. Onlar bu şirkətlər haqqında məlumatlarının olmadıqlarını dedilər. Bəzən onların hansı mövzuda seminar kerçirdikləri də bəlli deyil. Bu cür hallar təəsüf ki, çoxdur. Bizim xaricdə oxuyan, tədris təcrübəsi alan alimlərimiz çoxdur. Onların təcrübəli elmi rəhbərlərini, yüksək səviyyəli professorları ölkəmizə gətirmək çox yaxşı haldır. Amma hansısa çərçivədə keçirilən seminara beynəlxalq seminar adı vermək düzgün deyil. Biləsiniz ki, klinikada aparılan hər hansı beynəlxalq tədbirə görə klinika rəhbəri birbaşa məsuliyyət daşıyır.

Sizdə belə bir təsəvvür yaranmasın ki, keçirilən tədbirlərin qabağını alırıq. Əsla yox. Bacarırsınız ikiqat artıq keçirin. Amma bu tədbirlər qaydaqanun çərçivəsində olmalıdır.

İlk öncə elmi hissəyə müraciət edilməli və tədbrin proqramı tərtib olunmalıdır. Onların arasında xaricdən gələnlər varsa Səhiyyə Nazirliyinə müraciət olunmalı, onlar da Miqrasiya İdarəsinə müraciət etməlidirlər. Biz təhlükəli bir dövrdə yaşayırıq. Nə bilirik xaricdən kim gəlir, nə məqsədlə gəlir. Ona görə diqqətinizi bu məsələyə cəlb etmək istərdim. Bilirsiniz ki, universitetimiz təsərrüfat hesablı fəlaiyyət göstərir. Aparılan abadlıq işləri, tələbələrin təqaüdləri və s. qazandığımız hesabdan gedir.

Bəzən müraciətlərdə hansısa ölkəyə gedərkən bir həftəlik və ya bir aylıq maaşlarının saxlanılmasını xahiş edirlər. Artıq mühasibatlıqla da razılaşdırılıb. Maksimum bir həftəliyə konfransa gedənlərin maaşları saxlanılacaq. Mən də hesab edirəm ki, universitetdə elmi işlər yaxşı gedir. Amma bu sahənin təkmilləşdirilməsinə hələ ehtiyacımız var. Kafedra mərhələsindən başlayıb Tələbə Elmi Cəmiyyəti səviyyəsindən dissertasiya, müdafiə şurasına qədər mövcud problemlərimiz var. Əminəm ki, gələcəkdə onların həll olunmasına çalışacağıq" .

Bundan başqa bir sıra müxtəlif məsələlərə də münasibət bildirən G.Gəraybəyli dünyada hər bir universitetin öz himni olduğunu dedi. Bu təcrübə əsasında bizim universitetin də öz himni yaradıldı. Tələbələrimiz istər idman yarışlarında, istər beynəlxalq konfranslarda iştirak edən zaman həmin himni oxuya bilərlər.

Sözləri və musiqisi Sərdar Fərəcova məxsus olan Azərbaycan Tibb Universitetinin ilk himni səsləndirildikdən sonra şura üzvləri tərəfindən qəbul edildi.

Sonra müzakirəyə təqdim edilmiş gizli rəyin nəticəsi müsbət olan, düzəlişlərə ehtiyac olmayan fənn üzrə 2 tədris proqramının, gizli rəyin nəticəsinə görə düzəlişlər edildikdən sonra dərc oluna bilən 6 dərslik, 3 dərs vəsaiti, 6 metodik vəsait və 1 metodik tövsiyənin əlyazmaları təsdiqləndi.

ATU-nun İdman Kompleksinin Tədris İdman Kompleksi kimi adlandırılmasını təsdiqləyən elmi şura Cəbrayıl Məmmədovun terapevtik və pediatrik propedevtika kafedrasının məsləhətçi-professoru olmasını da dəstəklədi.

Sonda Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

# Görkəmli oftalmoloq Zərifə Əliyevanın xatirəsi anılıb

**Azərbaycan Tibb Universitetində Əməkdar Elm Xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 95 illiyinə həsr olunmuş xatirə tədbiri keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Gəray Gəraybəyli dünya şöhrətli oftalmoloq Zərifə Əliyevanın keçdiyi həyat yolu və həkimlik fəaliyyəti dövründəki müalicə üsulları barədə danışıb. Onun sözlərinə görə, Zərifə Əliyeva ötən əsrin 60-70-ci illərində ölkəmizdə çox geniş yayılmış traxoma xəstəliyinin qarşısının alınmasında müstəsna xidmətlər göstərib. O, 1947-ci ildə Tibb Universitetini fərqlənmə ilə bitirdikdən sonra Moskvada İxtisasartırma kursunu keçəndən sonra traxoma xəstəliyi ilə əlaqədar tədqiqatları davam etdirib və bu sahədə ən yaxşı mütəxəssislərdən biri sayılırdı. Təsadüfi deyil ki, o, gözün zədələnməsinin öyrənilməsi və profilaktikası sahəsindəki orijinal işlərinə görə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadın oftalmoloq olub.**



Universitetin oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev akademikin oftalmoloq peşəkarlığı, ana qayğıkeşliyi, insan kimi nəcib və xeyirxah keyfiyyətləri barədə bəhs edib: "Zərifə xanım təkcə oftalmologiya sahəsində deyil, dentologiya, tibbi etika barədə də çox maraqlı tədqiqatların müəllifi idi. Onun qələmə aldığı "Yüksək etimad" kitabı bu gün də həkimlərin stolüstü kitabıdır".

Oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva və rezidenti Şükür İmanov məşhur oftalmoloq-alimin elmi araşdırmaları, monoqrafiyaları, müalicəyə çətin tabe olan xəstəliklər sahəsində apardığı tədqiqatlardan bəhs ediblər. Onlar görkəmli professorun kitablarının bu gün də xeyirxah peşə sahibləri üçün ən yaxşı vəsait olduğunu söyləyiblər.





Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, xeyirxah və nəcib əməlləri ilə hələ sağlığında özünə əbədiyyət heykəli qoymuş görkəmli şəxsiyyət Zərifə Əliyevanın keçdiyi ömür yolunun sonrakı nəsillər üçün misilsiz örnək olduğunu qeyd edib, alimin xalqımız qarşısında misilsiz xidmətlərini xatırladıb.

Sonra məşhur oftalmoloqun həyatının ayrı-ayrı məqamlarını əks etdirən videogörüntülər nümayiş olunub. Xatirə tədbirində rayonda yaşayan aztəminatlı ailələrə tibbi ləvazimatlar paylanılıb.

# Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktiki kofrans

**Aprelin 27-də ATU-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Konfransdan öncə ulu öndər Heydər Əliyevin xatirəsi yad edilib, onun ATU-dakı büstünün qarşısına universitet rəhbərliyi adından əklil qoyulub.

Azərbaycanın Dövlət Himni ilə başlayan tədbirdə açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli prezidentin sərəncamına əsasən, bu ilin Azərbaycan Xalq Cümhuriyyəti ili kimi qeyd olunduğunu, bu münasibətlə ölkəmizin hər yerində yüksək səviyyəli tədbirlərin keçirildiyini deyib: "Tibb Universitetində də yubiley münasibətilə xüsusi tədbirlər planı hazırlanıb. Azərbaycan xalqı daim müstəqillik uğrunda mübarizə aparıb, bu yolda çoxlu qurbanlar verib. 1918-ci ilin martında xalqımızın məruz qaldığı soyqırım - Bakı, Quba, Şamaxı, Qarabağ və digər yerlərdə törədilən kütləvi qırğınlar, 1990-cı ilin 20 Yanvar qırğını, Xocalı soyqırımı və ermənilərin törətdikləri digər cinayətlər dövlət müstəqilliyimizin qarşısının alınmasına yönəlmişdi. Lakin düşmənlər xalqımızın iradəsini qıra bilmədilər, xalqımız azadlıq uğrunda mübarizəni davam etdirdi və Azərbaycan Xalq Cümhuriyyəti quruldu".

Vətənimizin azadlığı uğrunda gedən proseslərdə həkimlərin həmişə ön cərgədə olduğunu vurğulayan professor Gəray Gəraybəyli qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında da aktiv fəaliyyət göstərənlərin 40 faizdən çoxu həkimlər, tibb işçiləri idi: "1918-ci il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən ilk dəfə Azərbaycan Xalq Səhiyyə Komissarlığı, ilk Azərbaycan Səhiyyə Nazirliyi yaradılıb. 1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən yaradılan Bakı Dövlət Universitetinin ilk iki fakültəsindən biri və ən böyüyü Tibb fakültəsi olub. Sonralar – 1930-cu il mayın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutu – indiki ATU yaradılıb".






Azərbaycan Tibb Universitetinin inkişafında Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Cahangir Abdullayev, Kamil Balakişiyev və başqalarının böyük xidmətlərini yada salan rektor son dövrlərdə qazanılan uğurlardan da söz açıb. Ümummilli lider Heydər Əliyevin ölkədə yaratdığı əlverişli şərait və sabitliyin iqtisadi yüksəlişə, sosial sahələrin, o cümlədən ATU-nun inkişafına güclü stimul verdiyini bildirib: "1998-2000-ci illərdə ümummilli lider Heydər Əliyev 2 dəfə ATU-da olub, ATU-nun 70 illik yubileyində özü şəxsən iştirak edib. Ulu öndər ATU-nun nəzdində Hərbi-tibb fakültəsini yaradıb və 2001-ci ildə ATU-nun Tədris Stomatoloji Klinikasını təşkil etməklə, onun müasir dövrə uyğun maddi-texniki bazasının əsasını qoyub. Son 15 ildə isə Azərbaycan səhiyyəsi ilə yanaşı, Tibb Universiteti də dünya şöhrətli siyasətçi, ulu öndərin sədaqətli davamçısı Prezident İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğı sayəsində inkişaf edərək dünya standartları səviyyəsinə çatıb. Ölkə Prezidenti qısa müddətdə ATU-nun üç böyük klinikasının – Onkoloji, Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının tikilib istifadəyə verilməsini təmin edib. Son illərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva üç dəfə ATU-da olublar, bu təhsil, elm və müalicə ocağına yaxından köməkliklər göstəriblər".

Çıxışının sonunda rektor Gəray Gəraybəyli son illərdə ATU-da çox ciddi islahatların aparıldığını, indinin özündə də bu prosesin davam etdiyini qeyd edib. Həm tibb elminin, həm bu sahədə tədrisin yenilənməsinə, universitetin maddi-texniki bazasının yenidən qurulmasına, istedadlı gənc kadrların və tələbə kontingentinin irəli çəkilməsinə, onların ATU-nun idarəetməsində fəal iştirakına münbit şərait yaradıldığını söyləyən G.Gəraybəyli dövlətin xüsusi qayğısı nəticəsində bu istiqamətdə işlərin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Elmi-praktik konfransın plenar sessiyasında 4 məruzə dinlənilib. Mikrobiologiya və immunologiya kafedrasının professoru Akif Qurbanov "Mikroorqanizmlər arasındakı qarşılıqlı münasibətin yeni formasının öyrənilməsi", urologiya kafedrasının dosenti Rauf Nağıyev "Urolitiazın müasir müalicəsində laparoskopik ureterolitimiyanın yeri", ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov "Rəqəmsal cərrahiyyə. Təsəvvürün reallaşması", nevrologiya kafedrasının baş laborantı Kamran Salayev "Güclü tərəflər və çətinliklər anketinin Azərbaycan versiyasının validasiyası" mövzusunda geniş məruzələrlə çıxış ediblər.

Konfransın panel sessiyalarında da aktual mövzularla bağlı məruzələr dinlənilib və müzakirələr aparılıb.

Tədbir Azərbaycan Tibb Universitetinin yeni qəbul olunan himninin sədaları altında başa çatıb.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun rektoru "Qlobalizasiya və ali təhsildə yeni meyarlar" konfransında iştirak edib

**19-20 aprel tarixlərində Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının (UPBA) "Qlobalizasiya və ali təhsildə yeni meyarlar" adlı konfransı keçirilib. Konfransa müxtəlif ölkələrdən olan 60-dək rektor və digər mötəbər qonaqlar qatılıb.**





Tədbirdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ATU-nun xarici tələbələrlə iş üzrə dekanı, dosent Orxan İsayev və xarici tələbələrlə iş üzrə dekan müavini Nigar Ələkbərova da iştirak ediblər. Onlar ATU-dakı dərs prosesi, beynəlxalq əlaqələr, tələbələrə yaradılmış yeni şərait və klinikalar haqqında konfrans iştirakçılarına geniş məlumat veriblər.

İki gün davam edən konfransda "Bilik transferinə müasir yanaşma: Fənlərarası tədqiqat, təşəbbüskar və sahibkarlıq düşüncəsinin yüksəldilməsi", "Sosial məsuliyyət və bilik transferi". "Universitet və sənaye əməkdaşlığı", "Ali təhsildə bərabərlik: təkliflər və imkanlar" mövzuları müzakirə edilib.

Qeyd edək ki, Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyası ali təhsil müəssisələrinin yüksək vəzifəli icraçılarının daxil olduğu beynəlxalq qurumdur. UPBA 1965-ci ildə yaradılıb. Təşkilata üzvlük məhdud olub, regional akkreditasiyaya malik universitetlərin prezidentləri, rektorları və rektor müavinlərinə şamil edilir. Birlik qeyri-hökumət təşkilatı olaraq Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının (ECOSOC) məsləhətçi hüququna malikdir.

# Əməkdaşımız Türkiyədə beynəlxalq konqresə qatılıb

**11-15 aprel 2018-ci il tarixlərində Türkiyənin Antalya şəhərində Türk Toraks Dərnəyinin 21-ci illik konqresi keçirilib. Beynəlxalq tədbirdə ABŞ, Böyük Britaniya, Türkiyə, Azərbaycan və s. ölkələri təmsil edən 1000 nəfərdən çox nümayəndə heyəti iştirak edib. Konqresdə ölkəmizi Azərbaycan Tibb Universitetinin ftiziatriya kafedrasının dosenti Ceyhun İsmayılzadə təmsil edib.**



Türkiyə Səhiyyə Nazirliyinin, Türk Toraks Dərnəyinin, Avropa Respirator Cəmiyyətinin və Amerika Toraks Cəmiyyətinin dəstəyi ilə təşkil olunan bu tədbirdə müasir tibbin bəzi sahələrinə dair aktual məsələlər müzakirə olunub. Açılış mərasimində Türk Toraks Dərnəyinin sədri professor A.Fuat Kalyoncu, konqresin sədri professor Nurdan Köktürk, Amerika Toraks Cəmiyyətinin nümayəndəsi professor Marc Moss, Avropa Respirator Cəmiyyətinin nümayəndəsi Guy Joos və başqaları çıxış ediblər.

Dörd gün davam edən beynəlxalq toplantının sessiyalarında pulmonologiya və ftiziatriyanın aktual problemləri haqqında fikir mübadiləsi aparılıb. Bu zaman ağciyərlərin xronik obstruktiv xəstəlikləri, bronxial astma, vərəm və s. xəstəliklərin müasir diaqnostika və müalicə üsulları haqqında məruzələr təqdim olunub, maraqlı müzakirələr aparılıb.

**Aprelin 27-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş II Alman- Azərbaycan Serebrovaskulyar Simpoziumu keçirilib. Simpozium iştirakçıları tədbirdən öncə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyev və akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər, məzarların önünə gül dəstələri düzüblər. Daha sonra simpozium işinə başlayıb.**

# Ölümə aparan üçüncü xəstəlik - insultdan qorunmağın yolları müzakirə olunur



ATU-nun Tədris Terapevtik Klinikasının direktorunun elm və tədris işləri üzrə müavini Adil Nuriyev iştirakçıları universitet rəhbərliyi adından salamlayaraq simpoziumun işinə uğurlar arzulayıb. A.Nuriyev beynəlxalq simpoziumda müasir tibb üçün böyük əhəmiyyət kəsb edən aktual mövzuların müzakirə olunacağını diqqətə çatdırıb.

Tədbirin moderatoru, professor Ahmet Memiş bildirib ki, simpoziumda müzakirə edilən insult xəstəliyi ölüm səbəbinə görə dünya üzrə 3-cü yeri tutur: "Baş və onurğa beynin bir bölgəsini qidalandıran damarların patologiyasının yaratdığı keçici və qalıcı, yəni işemik və hemorragik tipli patologiyalara səbəb olan xəstəliklər qrupu insultlar adlanır. Amerikada aparılan tədqiqatlar göstərir ki, hər 40 saniyədən bir Birləşmiş Ştatlar vətəndaşı insult keçirir və hər 4 dəqiqədən bir ölkədə insult nəticəsində bir nəfər vəfat edir. Hər il ölkədə 800 min nəfərə yaxın insultdan əziyyət çəkir. Böyük Britaniyada isə hər il 100 min nəfər insultla xəstələnir və onlardan 400 mini 10 yaşına qədər olan uşaqlardır". Professor A.Memiş deyib ki, insult tibbi problem olmaqla yanaşı, həm də çox böyük iqtisadi problemdir. Ötən



il ABŞ-da bu xəstəliklə mübarizə üçün 60 milyard dollar xərclənib. Odur ki, insultun qarşısını almaq, vacib profilaktiki tədbirlər görmək hər bir ölkənin səhiyyəsinin qarşısında dayanan əsas məsələlərdən biridir.

Simpoziumun diaqnostika bölməsində tibb üzə fəlsəfə doktoru Nuran Əmənullayev "Mərkəzi sinir sisteminin damar xəstəlikləri: statistika, təsnifat, klinika", həkim Kamran Yaqubov "Beyin qan dövranı pozulmalarında diaqnostik KT və MRT, angioqrafiya", Nuran Abdullayev "Neyroradioloji diaqnostikada ən son elmi yeniliklər" mövzusunda məruzə ediblər. Daha sonra beyin damarlarının anevrizmasında indiyə qədər ölkəmizdə icra olunmayan müalicə metodları barədə də məruzə və çıxışlar dinlənilib.

# Tədris Terapevtik Klinikada uşaqlar üçün ödənişsiz aksiya keçirilib

**Tədris Terapevtik Klinikada uşaqlar üçün ödənişsiz tibbi müayinə aksiyasına start verilib.**

Klinikanın və Pediatrik Kardiologiya və Revmatologiya İctimai Birliyinin təşəbbüsü ilə keçirilən aksiyada əsas məqsəd uşaqların erkən tibbi müayinələrə cəlb edilməsini təbliğ etmək və valideynləri maarifləndirməkdən ibarətdir.

Məlumat üçün bildirək ki, keçirilən aksiyalar artıq ənənə halını alıb və gələcəkdə də bu işlərin davam etdirilməsi planlaşdırılır.





Aksiyada iştirak edən professor, pediatr-kardioloq İbrahim İsayev son illər Azərbaycanda səhiyyə sahəsindəki inkişafdan və tibbi sığortanın ölkəmizdə tətbiq olunmasının əhəmiyyətindən danışaraq bildirib ki, uşaqlar arasında kardioloji problemlər getdikcə artmaqdadır: "Uşaqlar arasında bu kimi problemlərin getdikcə artması və valideynlərin uşaqlarını vaxtında həkim müayinəsinə gətirmələri, maariflənməsi baxımından bu aksiyaların təşkili çox vacib xarakter daşıyır. Eyni zamanda, aksiyalar çox gözəl nəticələr verir. Belə ki, bu müayinələr zamanı hətta valideynlərin özlərinin bilmədiyi və şübhələnmədiyi problemlər də ortaya çıxır".

Yeni yaranmış Pediatrik Kardiologiya və Revmatologiya İctimai Birliyinin sədri, pediatr Sveta Rəfiyeva bütün dünyada uşaqlar arasında ürək xəstəlikləri və qeyri infeksion xəstəliklərin getdikcə artdığını diqqətə çatdırıb: "Məqsədimiz valideynlərin vaxtında övladlarını həkimə gətirməkdən çəkinməməsini təmin etmək və onlar arasında maarifləndirmə işlərini genişləndirməkdir".

Aksiyada Tədris Terapevtik Klinikasında çalışan və tibbin müxtəlif sahələrində xidmətləri olan həkim-mütəxəssislər də iştirak ediblər.

ATU-nun mətbuat xidməti

# ATU-nun prorektoru Türk Universitetlər Birliyinin qurultayına qatılıb

**Bu günlərdə Bişkek şəhərində Türk Universitetlər Birliyinin 3-cü qurultayı keçirilib. Qırğızıstan-Türkiyə Manas Universitetinin (KTMU) ev sahibliyi ilə keçirilən toplantının açılış mərasimində ölkə rəsmiləri, təşkilata üzv olan universitetlərin təmsilçiləri, həm də yerli ali məktəblərin tələbələri qatılıblar. Qurultayda ölkəmizi Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru Rauf Bəylərov təmsil edib.**





Tədbirin açılış mərasimində KTMU-nun rektoru Prof. Dr. Sebahattin Balcı, Türk Konseyinin baş direktor yardımçısı Dr. Ömer Kocaman və Türkiyənin Qırğızıstandakı səfiri Cengiz Kamil Fırat çıxış ediblər. Toplantıda Türk Universitetlər Birliyinin təşkilati məsələləri müzakirə olunub, birliyin loqosu və internet saytının məzmunu təsdiqlənib. Həmçinin, təşkilatın qarşıdakı dövrdə fəaliyyəti, gələcəklə bağlı planları dəyərləndirilib. Toplantı zamanı iştirakçılar quruma üzv olmayan digər universitetlərlə əməkdaşlığın gücləndirilməsi üçün bir sıra təkliflər irəli sürüblər. Məşhur türk yazıçısı Çingiz Aytmatovun anadan olmasının 90-cı ildönümü ilə bağlı beynəlxalq bir simpoziumun təşkili məsələsi də müzakirə olunub.

Türk Universitetlər Birliyinin idarə heyətinə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən 14 ali məktəbin nümayəndələri daxildir. Toplantının sonunda birliyin rəhbəredici orqanına yeni üzvlərin qatılması məsələsi müzakirə olunub. Nəticədə digər ölkələrlə yanaşı, Azərbaycan Dillər Universiteti də bu təşkilata yeni üzv seçilib.

# ATU-da Azərbaycan-Türkiyə IV Beynəlxalq Bariatrik-Metabolik Cərrahiyyə Konfransı keçirilir

**Aprelin 20-də Bakıda Azərbaycan-Türkiyə IV Beynəlxalq Bariatrik-Metabolik Cərrahiyyə Konfransı öz işinə başlayıb. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında keçirilən konfrans Türkiyə Bariatrik Cərrahlar Dərnəyi və Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının birgə təşəbbüsü ilə baş tutub.**





Konfransda açılış nitqi ilə çıxış edən klinikanın direktoru, professor Surxay Hadıyev tədbirin mövzusunun həm tibb elmi, həm də cəmiyyət üçün aktual olduğunu vurğulayıb. Onun sözlərinə görə, hazırda əhalinin sağlamlığı baxımından ən önəmli məsələlərdən biri də piylənmədir. Bu problemin ölkəmizdə yayılmasının qarşısını almaq, o cümlədən sağlam qidalanma, piylənməyə yol açan amillərlə mübarizədə əhalinin maarifləndirilməsi baxımından bu cür tədbirlərin keçirilməsi çox vacibdir.

Millət vəkili, ATU-nun ictami nəzarət şurasının rəhbəri İlham Məmmədov Azərbaycanda səhiyyənin inkişaf etdiyini, insan sağlamlığının müdafiəsinin dövlət üçün prioritet məsələ olduğunu bildirdi. Milli Məclis üzvü qeyd etdi ki, məhz bu diqqətin nəticəsində ölkəmizdə ən müasir tibbi avadanlıqla təchiz edilmiş xəstəxanalar və tibbi müalicə ocaqları yaradılıb. ATU-nun nəzdində fəaliyyət göstərən klinikalar da həmin müəssisələr sırasındadır.

Sonra Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, Azərbaycan Bariatrik və Metabolik Cərrahlar Assosiasiyasının sədri, laparoskopik-bariatrik cərrah Taryel Ömərov çıxış edərək builki bariatrik-metabolik konfransın təbabətin ən müasir nailiyyətlərindən biri olan metabolik cərrahiyyəyə həsr olunduğunu bildirib: “Tədbiri keçirməkdə əsas məqsədimiz dünyada aparılan əməliyyatların və tibbi yeniliklərin Azərbaycanda da tətbiq edilməsinə dair ən müasir protokollarla həkim və tələbələrimizi tanış etməkdir”.

T.Ömərov bildirib ki, toplantıda dünyanın səkkiz ölkəsindən gəlmiş 100-ə yaxın mütəxəssis iştirak edir. Konfrans Səhiyyə Nazirliyi tərəfindən 22 davamedici təhsil balı ilə akkreditasiya olunub və Dünya Bariatrik-Metabolik Cərrahlar Assosiasiyası tərəfindən ilk dəfə olaraq akkreditasiyadan keçərək rəsmi beynəlxalq status alıb.

Konfrans iki gün davam edəcək. Tədbirdə piylənmə cərrahiyyəsi, metabolik (II tip diabet) cərrahiyyə, metabolik xəstəliklər zamanı endokrinoloji müalicə və diyetoloji üsullar müzakirə olunacaq, dünyanın müxtəlif dövlətlərindən gəlmiş professorlar bizimlə öz təcrübələrini bölüşəcəklər. Ümumilikdə tədbirdə dünyanın yeddi ölkəsindən olan 14 alimin məruzələri dinləniləcək. Məruzə olunan məsələlər arasında “Biliopankreatik diversiya əməliyyatının 2 modifikasiyasının (duodenal Switch və SADİ-s) müqayisəli nəticələri”, “Metabolik cərrahiyyədə yeni metodların müqayisəli nəticələri”, “Piylənmənin cərrahi müalicəsi zamanı Laparoskopik steplersiz texniki modifikasiya olunmuş gastrik bupass”, “Həddindən artıq piylənməsi olan II tip şəkərli diabetli pasientlərin müalicəsinə multidissiplinar baxış”, “Bariatrik Cərrahiyyə sonrası abdominoplastika, lumpektomisi necə aparılır”, “Post Bariatrik dövrdə qidalanmaya bağlı problemlər və həlli” kimi aktual məsələlər var.

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Azərbaycan Allerqoloq, İmmunoloq və İmmunoreabilitasiya Elmi Cəmiyyətinin iclası keçirilib.**

# Allerqoloq, İmmunoloq və İmmunoreabilitasiya Elmi Cəmiyyətinin iclası keçirilib



İclasda çıxış edən Allerqoloq, İmmunoloq və İmmunoreabilitasiya Elmi Cəmiyyətinin rəhbəri, professor Amaliya Əyyubova bildirib ki, son zamanlar bronxial astmanın getdikcə artması və kəskinləşməsini nəzərə alan beynəlxalq allerqologiya təşkilatı aprel ayının 22-dən 28-nə qədər öz fəaliyyətini allergiya ilə mübarizəyə (atopik dermatitə) həsr edib.

O qeyd edib ki, allerqoloqlar nə qədər çalışsalar da, allergik xəstəliklərin qarşısını ala bilmirlər: “Bu xəstəlik ildən-ilə getdikcə artmaqdadır və müxtəlif yaşlarda rast gəlinə bilər. Artıq allergik xəstəliklərin epidemiya şəklini alacağı ilə bağlı fikirlər də var. Azərbaycanda da bu xəstəlik getdikcə artmaqdadır və bunları nəzərə alaraq, biz allerqoloqlar müəyyən tədbirlər həyata keçiririk”.

Atopik dermatitin klinik əlamətləri, tipləri, uşaqlarda müşahidə edilən müxtəlif formaları və s. haqqında məlumat verən A.Əyyubova bunun uşaqların 10-20%-də görülən xroniki bir dəri xəstəliyi olduğunu vurğulayıb: “Əsas əlamətləri qaşıntı, təkrarlayan sulantılı-qaşıntılı qızarıqlıqlar (yaralar) və dəri quruluğudur. Buna uşaqlarda bədəninin müxtəlif hissələrində rast gəlmək mümkündür”.

Cəmiyyətin elmi katibi, allerqoloq Tahirə Pənahova cəmiyyətin gördüyü işlər barədə danışıb və qeyd edib ki, atopik dermatit vaxtında müalicə olunmazsa, allergiyanın ən ağır forması - bronxial astmaya qədər gətirib çıxarır.

Daha sonra allerqoloq Ülkər Hümbətova Türkiyədə iştirakçısı olduğu “Türkiyə Ulusal allerqoloji və immunoloji” konqresi haqqında və orda müzakirə edilən mövzular barədə iclas iştirakçılarına məlumat verib.



Həmin konqresdə astma və peyvəndlər haqqında ən son yeniliklərdən söz açıldığını bildirib.

İclasın davamında həkim-dietoloq, piylənmənin müalicəsi üzrə mütəxəssis Emil Hidayətli “Sağlam qidalanma, xəstəliklərin müalicəsində effektiv vasitə” mövzusunda maraqlı məlumatlar verib.

# Valideyn himayəsindən məhrum olan tələbələrə ikiqat təqaüd verilir

**Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, xüsusilə də əhalinin aztəminatlı təbəqəsinin dəstəklənməsi dövlət üçün prioritet məsələlərdən biridir.**

Azərbaycan Tibb Universiteti bu dövlət siyasətinin tərkib hissəsi olaraq valideyn dəstəyindən məhrum olan tələbələrinə yardım göstərir, onlara ikiqat təqaüd verilməsini təmin edir.

“Təhsil haqqında” AR qanununa əsasən, 18 yaşına qədər valideyn himayəsindən məhrum olan uşaqlar 23 yaşına qədər bir çox imtiyazlardan yararlana bilirlər. Azərbaycan Tibb Universiteti isə 18 yaşından sonra valideyn himayəsindən məhrum olan tələbələri (23 yaşınadək) dəstəkləyir. Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəylinin təşəbbüsü ilə Elmi Şurada bu məsələ müzakirə olunmuş və müvafiq əmrlə 18 yaşından sonra valideyn dəstəyindən məhrum olmuş tələbələr universitetdə təhsil aldıqları müddətdə (23 yaşadək) onlara orta müvəffəqiyyət göstəricisinə əsasən təyin olunmuş təqaüdün iki mislinin verilməsi qərara alınmışdır.



Bu humanist addımın məqsədi tələbələrin sosial müdafiəsini gücləndirmək, onların tədris fəaliyyətini fəallaşdırmaq, təhsildə nailiyyət qazanmasını stimullaşdırmaqdan ibarətdir. 18 yaşından sonra valideyn dəstəyindən məhrum olan tələbələrə Təqaüd Fondu hesabına əlavə yardım olunur. Bu qərar artıq 2017-2018-ci tədris ilinin yaz semestrindən qüvvədədir.

Qeyd edək ki, ATU-da 2017-ci ilin dekabrında Təqaüd Fondu yaradılıb. Elə həmin vaxt Universitetin Elmi Şurasının iclasında valideyn dəstəyindən məhrum olan tələbələrə təqaüd ayılması qərara alınıb. Artıq ATU-nun onlarla tələbəsi bu imkandan yararlanıb.

**ATU-nun mətbuat xidməti**

# Dişlərin müalicəsinə estetik yanaşma

**Ortopedik stomatologiya kafedrasında artıq ənənə halını alan növbəti tematik seminar keçirilib. Bu dəfəki toplantı "Frontal dişlərin estetik restavrasiyası"mövzusuna həsr olunmuşdu.**

Kafedranın müdiri, professor Nazim Pənahov çıxışında seçilən mövzunun təsadüfi olmadığı və daha fərqli hissəni əhatə etdiyini bildirib: "Xatırladığınız kimi, ötən dəfə estetik diş analizlərinə həsr olunmuş seminarımız baş tutmuşdu. Bu dəfə həmin mövzunun davamı olaraq Frontal dişlərin estetik restavrasiyasından danışmaq qərarına gəlmişik. Çünki bu mövzu həm stomatoloqlar, həm də xəstələr üçün çox maraqlı və aktual mövzulardandır".

Kafedra müdiri seminarın tələbələr üçün də faydalı olacağını qeyd edib.

Daha sonra bu sahə üzrə İtaliyada professor Vanininin məşhur kursunu bitirən V.Pənahov "Frontal dişlərin estetik restavrasiyası" mövzusunda ətraflı məruzə ilə çıxış edərək ön bölgə dişlərinin konservativ müalicəsinə həm terapevtik, həm də ortopedik müalicələrin daxil olduğunu söyləyib: "Frontal dişlərin estetik restavrasiyası-dişin sağlam toxumasını maksimum dərəcədə qorumaqla defektin aradan qaldırılmasına nail olmaq deməkdir. Əslində, burada konservativlik bir qədər fərqli anlam daşıyır. Yəni, bu zaman məqsədimiz təkcə dişdə olan kariyesi aradan qaldırmaq deyil, əsas yanaşmamız daha çox sağlam





toxuma saxlamaqla estetikanın tam bərpasından ibarətdir".

Vüqar Pənahov seminar iştirakçılarını ön bölgə dişlərinə konservativ yanaşmada düzgün müalicənin seçilməsi, bu zaman uyğun müalicə metodları ilə tanış edib. Eyni zamanda tələbələrin suallarını cavablandırıb.

Toplantının sonunda kafedra müdiri, professor Nazim Pənahov tərəfindən məruzəçi dr. Vüqar Pənahova, həmçinin tədbirdə aktivlik nümayiş etdirən 3 tələbəyə sertifikatlar təqdim olunub.

# ATU-nun professoru Ərzurumda beynəlxalq simpoziumda çıxış edib

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Türkiyənin Ərzurum şəhərində beynəlxalq simpozium keçirilib. Ərzurum Atatürk Universitetində iki gün davam edən simpoziumda rəsmi şəxslər, Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Rusiyadan gələn ziyalılar da iştirak edib. Əvvəlcə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotosərginin açılışı olub. Sonra ümummilli liderdən bəhs edən sənədli film nümayiş olunub.**



Azərbaycan Tibb Universitetinin ictimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev beynəlxalq simpoziumda çıxış edib. O, çıxışında ulu öndər Heydər Əliyevin nəsillərə örnək olan siyasi fəaliyyətindən söz açıb: "Xalqın milli ləyaqətinin qorunması sahəsində Heydər Əliyevin fəaliyyətinin müəyyən məqamları və fikirləri təhlil edilir, onun metodoloji istiqamətləri ümumiləşdirilir. Azərbaycan xalqının tarixində Heydər Əliyevin əvəzsiz rolu qeyd edilir, sağlığında tarixə düşmüş ulu öndər kimi xarakterizə edilir. Bu kontekstdə Heydər Əliyevin fəlsəfi-əxlaqi fikirlərindən, məsləhətlərindən, nəsihət və tövsiyələrindən yararlanaraq hər bir azərbaycanlının milli ləyaqəti qorumağın strategiya və metodologiyasını öyrənməsinin zəruriliyi əsaslandırılır".

Professor Qoşqar Əliyev bildirib ki, Heydər Əliyevin Azərbaycan xalqının milli ləyaqəti probleminə yanaşmasında həyata keçirdiyi metodoloji prinsiplər orijinallığı, siyasi mövqeyi, elmi həqiqətləri qeyri-adi, qeyri-standart əlaqələndirməsi ilə rəğbət doğurur. Həmin metodoloji prinsiplərin yalnız bəzi məqamları fraqment halında nəzərdən keçirilir: "Heydər Əliyev konkret və real cəmiyyətin, iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrin bütün kompleks problem və qayğıları ilə birlikdə real həyatından çıxış edirdi. Həyatın bütün sahələrində xalqın tarixi nailiyyətlərinin vəhdəti, hissi – predmetli fəaliyyətin, tarixi məqsədin və perspektivin durumu – bu üç istiqamət Azərbaycan xalqının milli ləyaqəti problemini necə öyrənmək və başa düşmək məsələsinin təhlilində Heydər Əliyev tərəfindən məharətlə birləşdirilmişdir".

Q.Əliyevin sözlərinə görə, Heydər Əliyev gerçəkliyi idealizə etmir, keçid mərhələsində cəmiyyətin üzləşdiyi real problemlərdən və çətinliklərdən bütün həqiqəti ilə danışır və onun insanın real vəziyyəti, həyat səviyyəsi və keyfiyyəti ilə necə stimullaşdırılmasına diqqət yetirir: "Heydər Əliyev heç bir nitqində "Milli ləyaqət" anlayışının məna yükünü nəzərdən keçirməklə kifayətlənmir. Onun həyat fəlsəfəsində milli ləyaqət mənəvi-əxlaqi hadisə kimi başqa hadisələr və dəyərlərlə tamamlanır və gücləndirilir".

Professor əlavə edib ki, Heydər Əliyevin Azərbaycan xalqının milli ləyaqətini qorumaq yolunda dövlət, praktik, nəzəri və ideya-tərbiyəvi fəaliyyəti nəinki ölkəmizdə, həmçinin bütün dünyada tədqiqatçılar tərəfindən daha geniş şəkildə dərk olunur. Heç şübhə yoxdur ki, gələcək nəsillər hökmən deyəcəklər: "O, bizi öz milli ləyaqətimizi qorumağa hazırlayıb".

**ATU-nun mətbuat xidməti**

# Terapevtik stomatologiya kafedrasında da ödənişsiz seminarlara başlanıldı

***Aprelin 21-da terapevtik stomatologiya kafedrasında da ödənişsiz seminarlara start verildi.***



Kafedranın müdiri, professor Ağa Paşayev tədbir iştirakçılarını salamlayaraq bildirdi ki, bugünkü seminarda tanınmış mütəxəssislərimiz öz təcrübələrini sizlərlə bölüşəcəklər: "Çalışmışıq ki, mövzular müasir, maraqlı, həm də hər biriniz üçün faydalı olsun. Seminarın gündəliyinə iki mövzu daxil edilib. "İnterdistiplinar planlaşma: funksional və estetik nailiyyət" mövzusunda dosent Ramiz Əhmədbəyli, "Endodontik müalicə zamanı buraxılan səhvlər və araşdırmalar" mövzusunda isə dosent Aqil Əliyev sizə



ətraflı məlumat verəcək. Düşünürəm ki, hər iki mövzu çox aktualdır".

Xəstəyə təkcə terapevt, ortaped və yaxud cərrah kimi yanaşmağın doğru olmadığını deyən kafedra müdiri, ümumi bir kompleks müalicəyə üstünlük verməyin zəruriliyini vurğuladı. Onu da qeyd etdi ki, endodontik müalicə ilə bağlı suallar həmişə yaranır və tələbələri düşündürür: "Hələ ki kariyesle mübarizə aparırıq. Müəyyən nailiyyətlər əldə edilsə də, tam müsbət nəticə yoxdur. Ona görə də diqqətinizə çatdırılan mövzular barədə təcrübəli müəllimlərimizin məruzələrindən çox şey öyrənəcəyinizə əminəm".

Bundan sonra dosent Ramiz Əhmədbəyli çıxış edərək Azərbaycanda uzun müddətdir ki, stomatoloji ictimai birliklərin fəaliyyət göstərdiyini, həmin birliklərin təşkilatçılığı ilə müxtəlif konfrans, konqres və seminarların keçirildiyini söylədi: "Biz də istərdik ki, tələbələrimiz istər diplom öncəsi, istərsə də diplom sonrası o toplantılarda iştirak etsinlər. Amma bəzi güzəştli şərtlərə baxmayaraq, tələbələrimizin hamısı ödənişli olan o toplantılara qatıla bilmir. Ona görə də klinikamızın rəhbərliyi ilə bu məsələ ətrafında müəyyən söhbətlərimiz oldu və qərara gəldik ki, mütəmadi olaraq tələbələr, eləcə də rezidentlər üçün ödənişsiz seminarlar təşkil edək. Yəni beynəlxalq konqreslərdə iştirak edən müəllimlərimiz öz təcrübələrini tələbələrimizlə, gənc həkimlərimizlə paylaşsınlar".

Nəyə görə "İnterdistiplinar planlaşma: funksional və estetik nailiyyət" mövzusunu seçdiyinə də aydınlıq gətirən dosent R.Əhmədbəyli qeyd etdi ki, ilk dəfə bu mövzunu 7 il bundan öncə beynəlxalq universitetlərin birində dinləmişdim. "Bu mövzunun mənası, fəlsəfəsi nədir", "Bizim gündəlik çalışmamız üçün faydası nə olacaq" – suallarına cavab axtarmışdım. O gündən bu günə qədər bu fəlsəfəni özümə örnək götürdüm: "Bu fəlsəfəni anlamaq imkan verir ki, səhvlərimizi minimuma endirək. Xəstə bizə müraciət edəndə planlama əsasında 1-ci gündən son günədək estetik və finksianal reablitasiyanı bitirməliyik. Professional komanda şəklində çalışmalı, ardıcıl diskussiyalar aparmalı və rastlaşdığımız fəsadları fərqli texnologiyalar vasitəsilə aradan qaldırmağa nail olmalıyıq".

Seminarda dosent Aqil Əliyevin "Endodontik müalicə zamanı buraxılan səhvlər və araşdırmalar" mövzusunda əhatəli məruzəsi də maraqla dinlənildi. Karies prosesinin ağırlaşmasına – zamanla diş toxumalarını dağıdaraq, diş damarları və sinirlərinin iltihabına gətirib çıxaran səbəblərə toxunan dosent A.Əliyev diş kökü kanalının müalicəsi zamanı buraxılan səhvlərdən və həmin səhvlərin aradan qaldırılması yollarından danışdı.

Seminarın sonunda tələbələrin sualları cavablandırıldı və kafedranın müdiri, professor A.Paşayev hər iki məruzəçiyə təşəkkürünü bildirdi.

**Arif MƏMMƏDLİ**

# Yubiley təbriki

**ATU-nun dermatovenerologiya kafedrasının assistenti Zakir Əli oğlu Abiyevin bu günlərdə 80 yaşı tamam oldu.**



Z.Abiyev 1938-ci il aprelin 23-də Bakıda doğulub. 1958-ci ildə N.Nərimanov adına ATİ-nun müalicə-profilaktika fakültəsinə daxil olub, 1964-cü ildə isə institutu bitirib.

Elə həmin il Riqa şəhərində Dairə hospitalı nəzdində "Gənc Sənətçilərin (həkimlərin) Dairə təkmilləşmə" kurslarında dinləyici, 1964-1967-ci illərdə Polşanın Leqnis şəhərində hərbi hissədə lazaret rəisi olub.

1967-1968-ci illərdə Belarusiya Respublikasının Postava şəhərində yerləşən hərbi hissədə lazaret rəisi kimi xidmət göstərib.

1968-ci ildə ölkəmizə qayıdan Z.Abiyev 1971-ci ilə qədər Respublika Dəri-Zöhrəvi Dispanserində həkim-ordinator vəzifəsində işləyib.

1974-cü ildə Azərbaycan Tibb İnstitutunun aspiranturasını bitirən Zakir müəllim o vaxtdan indiyə kimi dermatovenerologiya kafedrasında assistent vəzifəsində çalışır.

Z.Abiyev Səhiyyə Nazirliyinin qərarı ilə bir müddət Bakı şəhər Dəri-Zöhrəvi Dispanserində baş həkim vəzifəsində də işləyib.

O, 1982-ci ildə Moskva şəhərində Piroqov adına Moskva Dövlət Tibb İnstitutunda, 1988-ci ildə isə Leninqrad Pediatrik Tibb İnstitutunda dəri və zöhrəvi xəstəliklər ixtisası üzrə təkmilləşmə kursunu bitirmişdir.

20-yə yaxın elmi işin müəllifidir. Dermatovenerloqların Elmi Cəmiyyətinin üzvüdür.

Sevimli iş yoldaşımızı yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

*Dermatovenerologiya kafedrasının əməkdaşları*

## İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında elmi-praktik konfrans keçirilib

**Aprelin 24-də ictimai səhiyyə fakültəsi Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə ictimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında elmi-praktik konfrans keçirilib.**



İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanov universitetimizdə uzun illərdir



ki, Tələbə Elmi Cəmiyyətinin fəaliyyət göstərdiyini qeyd edərək bildirib ki, onun bir bölməsi də bizim kafedradadır. O, son bir il ərzində kafedrada təxminən 50-dən çox tələbənin elmi işlər gördüyünü və bu elmi işlərin nəticələrinin ATU-nun Tələbə Elmi Cəmiyyətinə təqdim olunduğunu deyib. Kafedranın assistenti Aygün Babayevanın rəhbərliyi və baş müəllim Nərminə Cabbarovanın yaxından köməkliyi ilə tədqiqata cəlb edilən tələbələrin müxtəlif mükafatlar, sertifikatlar aldığını xatırladan kafedra müdiri bugünkü konfransda da maraqlı məruzələrin səslənəcəyinə əminliyini söyləyib. Bundan sonra müxtəlif mövzularda məruzələrlə çıxış etmək üçün sözü tədqiqatçı tələbələrə verib.

İctimai səhiyyə fakültəsinin IV kurs, 618$^b$ qrup tələbələri Zeynəb Bağırova, Ülviyyə Həmidova və Balaxanım Məmmədova "Tibb Universitetinin tələbələri arasında emosional-stress təzahürlərinin yayılması səviyyəsinin qiymətləndirilməsi" (elmi rəhbər: assistent Aynur Bədəlova), 618$^a$ qrup tələbələri Bahar Şabanova, Əfsanə Umarova və Kafiyə Həmzətzadə "Ali təhsil müəssisə tələbələrinin kontraseptiv vasitələr barədə məlumatlılıq səviyyəsinin təhlili" (elmi rəhbərlər: dosent Rafiq Liftiyev, assistant Kəmalə Həbibova), 620-ci qrup tələbələri Dünya Bayramova və Gülər Məhərrəmova "+1 xromosoma" (elmi rəhbər: baş müəllim Nərminə Cabbarova) və 618$^a$ qrup tələbəsi Manya Abbasova "Uşaq travmatizmin bəzi sosial-gigiyenik aspektləri" (elmi rəhbər: baş müəllim Nərminə Cabbarova) mövzusunda məruzələrlə çıxış ediblər.

Konfransda iştirak edən professor-müəllim heyəti ayrı-ayrı müəssisələrdə, müxtəlif regionlarda aparılın araşdırmalar əsasında hazırlanan məruzələri qənaətbəxş qiymətləndirərək gənc tədqiqatçılara öz tövsiyələrini veriblər.

**Qabil ABDULLAYEV**



## ATU-nun üç tələbəsi "Uşaq xəstəliklərinin propedevtikası" kitabı ilə mükafatlandırılıb

**Terapevtik və pediatrik propedevtika kafedrasında Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**



Konfransda professor və müəllim heyəti, II MPF-nin dekan müavini, tələbələr iştirak ediblər.

Elmi işlərin mövzuları propedevtika fənninə uyğun şəkildə planlaşdırılaraq qruplaşdırılıb, işlərin icra planı tərtib olunub.

Elmi-tədqiqat işinə cəlb edilən 32 tələbədən 14 nəfər məruzələrlə çıxış edib.

Müəllim və tələbələrin qiymətləndirilməsinə əsasən 9 tələbənin elmi-tədqiqat işi Fakultə TEC-nin konfransına tövsiyə edilib.

Konfransda ilk 3 yeri tutan 12a qrup tələbəsi Rauf Vəliyev (elmi rəhbər: dosent İ.Məmmədova), 20a qrup tələbəsi Nəzrin Kərimzadə (elmi rəhbər: dosent A.Bağırzadə) və 207a qrup tələbəsi Toğrul Həsənov (elmi rəhbər: assistant K.Abbasəliyeva) əməkdar elm xadimi, tibb elmləri doktoru, professor İbrahim İsayevin "Uşaq xəstəliklərinin propedevtikası" kitabı ilə mükafatlandırılıblar.

Konfransa yekun vuran kafedra müdiri, professor İ.İsayev məruzələrlə çıxış edən tələbələrə, onların elmi rəhbərlərinə təşəkkür edərək, daha da fəal və məsuliyyətlə çalışmaqlarını arzulayıb.

## Universitetdə tələbələrin "İntellektual" yarışı keçirilib

**Aprelin 23-də Azərbaycan Tibb Universitetində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı və ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 İllik Yubileyinə həsr olunmuş "İntellektual" yarışı keçirilib. Yarışda universitet tələbələri iştirak edib, hər komandada 5 nəfər olmaq şərtilə 20 komanda iştirak edib.**



Təşkilatçılardan THİK-in sədri Elvin Kərimlinin "Təbib" qəzetinə verdiyi məlumata görə, bu yarışı keçirməkdə əsas məqsəd gənc istedadlı tələbələri üzə çıxarmaq və universitet rəhbərliyi tərəfindən onlara qiymət verməkdən ibarətdir: "Yarış zamanı tələbələri maraqlandıran və onların səviyyəsinə uyğun suallar verilir. Suallara düzgün cavab verən və yüksək bal toplayan komandalara sonda sertifikatlar təqdim olunacaq və komanda üzvlərinə hədiyyələr veriləcəkdir."

Universitetin Tələbə Gənclər Təşkilatının sədr müavini Rauf Vəliyev isə öz açıqlamasında bildirib ki, bildiyiniz kimi, ölkə başçısı Cənab İlham Əliyev tərəfindən bu il ölkəmizdə "Cümhuriyyət ili" elan edilib və bu barədə uyğun sərəncam imzalayıb: "Biz də gənclər olaraq öz tariximizə sadiq qalan bir nəsilik. Bu şərəfə görə intellektual yarış təşkil etmək qərarına gəldik. Özünüz də şahidsiniz ki, planladığımız yarış baş tutub. Yarışda rəmzi olaraq 100 istedadlı tələbə iştirak edir. Bizə verdiyi dəstəyə görə universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürümüzü bildiririk. Gələcəkdə də bu tipli yaddaqalan yarışlar keçirməyi planlaşdırırıq."- deyən sədr müavini yarışın təşkilatçılığında fəallıq göstərən tələbələrin adlarını çəkdi. Fəallardan Cavid Mustafa, Qaysar Şabanov, Eyyub Miriyev, Azər Məmmədli, Əli Kazımzadə, Asya Məmmədli, Gülmir Rüstəmovanın adlarını xüsusilə vurğuladı.

Qeyd edək ki, yarışın nəticələrinə görə I yerin qalibi "Eclipse" komandası oldu. İkinci və üçüncü yerləri isə "Gryffindor", "Fortiori" komandaları bölüşdülər. Onlara sertifikatlar və hədiyyələr təqdim edildi.

## VOLEYBOLÇULARIMIZIN QƏLƏBƏSİ

**Yanvar-aprel aylarında Azərbaycan Respublikası Voleybol Federasiyasının I Liqa yarışlarında iştirak edən ATU-nun kişilərdən ibarət voleybol üzrə yığma komandası fəxri III yeri tutaraq, gələn il təşkil olunan Yüksək Liqada iştirak etmək hüququ qazanıb.**



Bu münasibətlə Azərbaycan Voleybol Federasiyasının I Vitse-prezidenti F.Qarayev tərəfindən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə ünvanlanan təşəkkür məktubunda qeyd olunur ki, "Universitetinizin tələbə voleybol komandasının Cəlaləddin Babayevin rəhbərliyi altında çempionatda uğurlu çıxış etməsi Federasiya tərəfindən yüksək qiymətləndirilir və növbəti ildə komandanızın peşəkar klub kimi "Yüksək Liqa" Azərbaycan Çempionatı yarışında çıxış etməsi üçün hər cür dəstək verməyə və köməklik göstərməyə hazırdır."

Biz də öz növbəmizdə əldə etdiyi uğurlu nəticəyə görə komandanın məşqçisi Cəlaləddin Babayevi, komanda üzvləri Əlirza Kərimi, Dənizxan Şahin, Dadrəs Həsən, Hacı Maqsudov, Turac Cəfəri, Pirəlifət Saalar, İkram Hüseyn, Nazifi Arman, Niyazı Aslan, Malik Cemi, Dəmir Babayev, Məhər Bayramov və Orxan Aslanlını təbrik edir, qalib komandamıza gələcək yarışlarda yeni qələbələr arzulayırıq!

**K.Kəbirlinski,**
*"Təbib" idman klubunun sədri, professor*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların müdirləri:**
- Nevrologiya kafedrası
- Epidemiologiya kafedrası

**Kafedraların dosentləri:**
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Mikrobiologiya və immunologiya kafedrası - 1 yer

**Kafedranın assistenti:**
- İnsan anatomiyası kafedrası - 1 yer

**Kafedraların baş müəllimləri:**
- Xarici dillər kafedrası - 2 yer
- Xarici dillər kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08, 597-41-69,597-43-23.**

## Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə
2. Kadrlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun Klinika və Laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

## Allah rəhmət eləsin!

Məhkəmə təbabəti kafedrasının əməkdaşları kafedranın assistenti Sirac Dadaşova anası
**Şüşən xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının kollektivi histologiya, embriologiya və sitologiya kafedrasının əməkdaşı Azər Mənisimova atası
**Əbdülhüseynin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Travmatologiya və ortopediya kafedrasının əməkdaşları kafedranın assistenti Muxtar Əzizova qardaşı
**Cəbrayılın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Farmakologiya və II mamalıq – ginekologiya kafedralarının əməkdaşları II müalicə-profilakitika fakültəsinin dekan müavini, dosent Zabit Məmmədova anası
**Pakizə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları baş müəllim Fatma Axundovaya bacısı
**Fəridə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hərbi tibb fakültəsinin əməkdaşları Cavid İmamverdiyevə atası
**Şahverdinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Dünyada hər bir universitetin öz himnini yaratması təcrübəsi var. Beynəlxalq nüfuzu ildən-ilə artan Azərbaycan Tibb Universitetinin də bu günlərdə öz himni yaradıldı və Böyük Elmi Şuranın 24 aprel 2018-ci il tarixli iclasında qəbul edildi.**

## AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN HİMNİ

**Musiqisi və sözləri:** *Sərdar Fərəcov*

Ey gənc həkimlər, tələbə dostlar,
Sizindir ən şirin, gözəl arzular.
Təhsil alaraq, ucalırıq biz,
**Ana tək doğmadır universitetimiz.**
**Yaşa, yaşa doğma universitet!**

Sevgi yaşatsın
Bu dünyanı.
**Tibb Universiteti, Tibb Universiteti**
**Xoş əməllər ilə min yaşa.**

**Nəqarət:**

Gülsün könüllər,
Bilsin bu əllər,
Hamıya məlhəmdir
Bu səfalı əllər.

Sağlam həyatla
Yaşasın hamı.

**II**

Hippokrat andı – amalımızdır,
Tibb elmi qəlbimiz, kamalımızdır.
Alim həkimlər dərs deyir bizə,
Universitet nur saçır taleyimizə.
**Yaşa, yaşa doğma universitet!!!**




## "Ürək çatışmazlığı xərçənglə müqayisədə daha erkən ölümlərə səbəb ola bilər"

**❍ ATU-nun Tədris Terapevtik Klinikasında "Novartis" əczaçılıq şirkətinin dəstəyi ilə "Ürək çatışmazlığı əlamətlərinin pisləşməsinin və fiziki məhdudiyyətin azalması nəticəsində həyat keyfiyyətində əhəmiyyətli irəliləyiş" mövzusunda tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə direktorun elm və tədris işləri üzrə müavini Adil Nuriyev açıb.

O, klinikanın direktoru, professor Hüseyn Qabulovun adından tədbir iştirakçılarını salamlayıb, şirkətə tədbirin keçirilməsində verdikləri dəstəyə görə minnətdarlığını bildirib.

A.Nuriyev son illərdə digər xəstəliklərlə müqayisədə ürək-damar xəstəliklərinin artdığını və bu xəstəlik nəticəsində dünyasını dəyişən insanların ilbəil çoxaldığını bildirib.

Ürək-damar xəstəliklərinin müalicəsində tətbiq edilən yeniliklərlə bağlı klinikanın kardiologiya şöbəsinin müdiri Fərid Əliyev məlumat verib.

O bildirib ki, son zamanlar istifadə edilən bir çox dərman vasitələri ürək-damar xəstəliklərinin qarşısını qismən də olsa almaqda köməyimizə çatır: "Ürək çatışmazlığı diqqət edilməsi vacib olan bir xəstəlikdir və son zamanlar daha da artmaqdadır. Səhiyyə sahəsində tətbiq edilən yeniliklər bu xəstəlikləri tez bir zamanda



aşkar etməyə imkan yaradır. Ürək çatışmazlığı xərçənglə müqayisədə daha erkən ölümlərə səbəb ola bilər. Xərçəng xəstəsi olan insanlar uzun müddət yaşaya bilirlər, amma ürək problemi olan insanlar vaxtında və düzgün müalicə olunmazlarsa, tez bir zamanda həyatlarını itirirlər".

## Aprelin 25-i Beynəlxalq DNT Günüdür

**Hər il aprelin 25-də dünyanın müxtəlif ölkələrində qeyri-adi bayram - Beynəlxalq DNT Günü qeyd edilir. 1953-cü il aprelin 25-də "Nature" jurnalında alimlər Ceyms Uotson və Frensis Krik Moris Uilkinsom və Franklin Rozalind DNT molekulunun strukturunun tədqiqat nəticələrini dərc edib. Düz 50 il sonra - 2003-cü il aprelin 25-də insan genomunun şifrini açması ilə əlaqədar layihə başa çatmağa yaxın olduğunu elan edilib.**



AZƏRTAC xəbər verir ki, insan genlərinin strukturunun təyin edilməsi səhiyyənin inkişafı üçün əhəmiyyətli addımdır. DNT Gününə həsr edilmiş tədbirləri ilə insanın genomunun tədqiqatını aparan ABŞ-ın Milli İnstitut məşğul olur: Dünyanın müxtəlif ölkələrində bır sıra təşkilatlar hər il aprelin 25-də Beynəlxalq DNT Gününü qeyd edirlər, bəzən gün dəyişsə də, apreldə onun qeyd olunması ənənə şəklini alıb.

DNT-nin tərkibində genetik informasiya saxlanılır və məhz onun testi qohumluq əlaqələrinin təyin edilməsi üçün ən geniş yayılmış üsuldur. Əbəs yerə deyil ki, DNT-nin açılması elmdə inqilab hesab edilir.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, 320b qrup tələbəsi Kazımov Vaqif Oktay oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Tibbi profilaktika fakültəsinin VI kurs, 602a qrup tələbəsi Mirzəyeva Hürü Azər qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 703b qrup tələbəsi Quliyeva Fidan Yasən qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 742a qrup tələbəsi İdris Bayram Mehmet oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, 243b qrup tələbəsi Adem Ergin Bekir oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, 805-ci qrup tələbəsi Kurda Sava Ahmed qızına Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 368b qrup tələbəsi Rzazadə Ramazan Tofiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, 817i-3 qrup tələbəsi Noorafkan Morıteza Emin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 362b qrup tələbəsi Abdullayeva Fidan Hikmət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsgəndərova Etibar Qəzənfər qızına 1991-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatriya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800